

**Hörmətli Valideynlər!!!**
Övladınızın narkotiklərdən istifadə etməsini istəmirsinizsə **UNUTMAYIN!**

- Siz övladınızın hansı vəziyyətə düşməsinə rəğmən ona yaxın olmalısınız.
- Əgər övladınız nəzarətdən çıxıbsa utanmayın, mütəxəssislərə müraciət edin.
- Əgər övladınız spirtli içki içmirsə və tütün məmulatı qəbul edirsə, onun narkotik vasitələrdən istifadə etmə ehtimalı digərlərindən daha artıqdır.
- Əgər evdə məişət zorakılığı hökm sürürsə, bu övladınıza neqativ təsir edə bilər.
- Övladınızın hərəkət və sağlamlığına fikir verin. Əgər övladınızda anlaşılmaz ürək bulanmaları, qarabasmalar və həyəcan varsa mütləq mütəxəssislərə müraciət edin.
- **UNUTMAYIN!** Əgər övladınız artıq narkotik vasitələr qəbul edirsə, deməli onun tərbiyəsində hansısa boşluq olub. Bu boşluğu daha da dərinləşdirməyin.

**ÖVLADLARINIZI "NARKOTİK VASİTƏ" ADLI BƏLADAN QORUMAQ ÜÇÜN ÖZ SEVGİ VƏ DİQQƏTİNİZİ ONLARDAN ƏSİRGƏMƏYİN!!!**


**Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının İşçi qrupu**

**Tel:** (+994 12) 498 25 28; (+994 12) 498 58 82; (+994 12) 493 12 37
**E-mail:** info@nmdk.gov.az
**Web:** www.nmdk.gov.az


Azərbaycan Respublikası Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə DÖVLƏT KOMİSSİYASI

# SAĞLAM HƏYAT NAMİNƏ NARKOTİKLƏRDƏN UZAQ OLUN



## VALİDEYNLƏR! SİZ BUNU MÜTLƏQ BİLMƏLİSİNİZ!

Narkotik vasitələr - daxili orqanların zədələnməsi və vaxtsız ölümə gətirib çıxaran toksik maddələrdir.
Narkotik vasitələrdən bir dəfə istifadə etmək kifayət edir ki, insanda psixoloji asılılıq formalaşsın və gələcəkdə həmin maddənin aludəçisi olsun!

## ƏN ÇOX İSTİFADƏ OLUNAN NARKOTİK VASİTƏ QRUPLARI

**Opiatlar** - *(tiryək, asetilləşdirilmiş tiryək heroin, metadon, və s.)*
**Kannobinoidlər** - *(nəşə, plan, çətənə, həşiş və s.)*
**Hallusinogenlər** - *(barbituratlar, həşiş, LSD və s.)*
**Psixostimulyator** - *(kokain, amfetamin, metamfetamin və s.)*

90% valideynlər ancaq 1 və yaxud 2 ildən sonra aşkar edirlər ki, övladları narkotik maddə istifadəçisidir. 85% valideynlər bu faktdan özlərini gücsüz və çaşqın hiss edirlər. Səbəb isə narkotik maddələr haqqında olan məlumatsızlıqdır!



## YENİYETMƏLƏRİN NARKOMANİYAYA DÜÇAR OLMASI NƏ ÜÇÜN BAŞ VERİR?

**Yeniyetmələr bu səbəblərdən narkotik vasitələrin istifadəçisi olurlar:**

- valideynlərinin nəzarətindən çıxmaq həvəsi.
- müstəqil həyata olan həvəs.
- qadağan ediləni (narkotik) nəzərdən keçirmək.
- güclü, hər bir şeyə nail olmaq hissi və valideynlərdən çəkinməmək.

**Hansı əlamətlər sizin övladınızın narkotik vasitələrdən istifadə etməsinə şübhə yarada bilər.**

- iynə və kəsik izlərindən (əsasən qollarında). üzərində qaşıq, iynə və digər deşici alətlər aşkarladıqda.
- üzərində kapsul, dərman, toz və şaldılmış siqaret dənəsi aşkarladıqda.
- gözbəbəyin həddindən artıq genişlənməsi və ya daralması.
- ağızdan spirtli içkinin iyi gəlmədiyi halda hərəkətlər və davranışında əngəlləmə aşkarlandıqda.

**VAXT İTİRMƏDƏN ÖVLADLARINIZI NARKOTİK VASİTƏLƏRDƏN VƏ NARKOMANİYADAN XİLAS EDİN!!!**

## ŞÜBHƏ YARANDIQDA NƏ ETMƏLİ?

**Təlaşa yol verməyin.**
Fikirləşmədən addım atmayın. Siz nə edə bilərsiniz ki, övladınıza kömək olsun? Hər bir xırdalığı düşünün.

**Təlaşa yol verməyin** - hər zaman köməklik göstərmək olar.
Övladınızla həmsöhbət olun. Siz kifayət qədər mənfi emosiyalar yaşaya bilərsiniz. Özünüzü sakitləşdirin və sonra söhbətə başlayın.
Hədə-qorxular və tənqidlər övladınızı sizə qarşı qapaya bilər. Amma ona kömək etmək üçün siz onun etibarını qazanmalısınız. Ona olan sevginizdən və onu təhlükəli vərdişlərdən qorumaq istədiyinizi bildirin.

**Dəstəyi təmin edin.**
Hər bir vəziyyətdə övladınıza olan dəstək vacibdir. Münasibəti düzgün qurmaq və ona qarşı ehtiramla yanaşmalısınız.
Özünüzə və övladınıza köməyi təmin edin. Düşünün, özünüzə sual verin ki, Siz təkbaşına hansısa ölümcül xəstəliyə qalib gələ bilərsinizmi?
Çox güman ki, mütəxəssislərə müraciət edərsiniz. Məhz narkotik vasitələrlə bağlı olan problemlərlə də bu cür davranın. Yadınızda saxlayın ilk öncə yeniyetmə-gəncin bu bəladan xilas olmaq istəyi yaranmalıdır. İstək və dəstək bu həvəsi onda oyada bilər. Bu səbəbdən də siz bir valideyin olaraq övladlarınızı xilas etmək naminə müxtəlif dövlət qurumlarına və digər aidiyyəti təşkilatlara müraciət edə bilərsiniz!!!